# 2023 – "Heydər Əliyev İli"

## "Olimpiya ləyaqəti" mükafatının layiqli sahibi

**İdman ictimaiyyətimiz tədricən finişə yaxınlaşan 2022-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının 30-cu ilinin tamam olduğunu yaxşı bilir. Prezident İlham Əliyevin martın 28-də imzaladığı "Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin 30 illiyinin qeyd edilməsi haqqında" sərəncam dövlətimiz tərəfindən bu yubileyə necə böyük əhəmiyyət verilməsinin parlaq təzahürüdür.**



Həmin sərəncamdan sonra respublikamızın müxtəlif guşələrində keçirilən kütləvi idman tədbirləri və yarışların ölkənin olimpiya hərəkatında əlamətdar hadisəyə həsr olunması da dediklərimizin təsdiqidir.

Lakin 2022-ci il Azərbaycan üçün təkcə Milli Olimpiya Komitəsinin qarşıdakı noyabrda yüksək səviyyəli rəsmi tədbirlərlə qeyd olunacaq 30 illiyi ilə deyil, həm də bir sıra digər olimpiya yubileyi ilə əlamətdardır. Bu gün onlardan birini xatırlayaq.

... Onda da, səhv etmirəmsə, indiki kimi payız idi, uzaq Reykyavikdən Azərbaycanın olimpiya hərəkatı, bütün idmanımız üçün fərəhli bir xəbər alınmışdı. Milli Olimpiya Komitələri Assosiasiyasının 1997-ci ilin son aylarından birində İslandiya paytaxtında keçirilmiş baş məclisində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Olimpiya ləyaqəti" mükafatı ilə təltif olunması haqqında qərar qəbul edilmişdi. Bununla da olimpiya hərəkatı və idman sahəsində böyük xidmətlərinə görə görkəmli dövlət xadimlərinə verilən yüksək mükafat daha bir layiqli sahibini tapmışdı. İndi həmin gündən 25 il keçir.

Ali mükafat gələn il anadan olmasının 100-cü ildönümünü təntənə ilə qeyd edəcəyimiz ümummilli liderin respublikamıza rəhbərlik etdiyi uzun illər ərzində bədən tərbiyəsi–idmanın inkişafına, sağlamlıq və gümrahlıq məşğələlərinə, yüksək nailiyyətlər idmanına və olimpiya hərəkatına gündəlik qayğı və diqqətinin bəhrəsi idi.

Təsadüfi deyil ki, Azərbaycan idmançıları Heydər Əliyevi özlərinin ən yaxın dostu hesab edirdilər. Müdrik rəhbərin idman ictimaiyyətimizin nümayəndələri qarşısında çıxışlarından birində dediyi "Azərbaycan Prezidenti kimi şəxsən mən söz vermişəm və indi də bunu təsdiq edirəm ki, idmana xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz", – sözləri isə hamının ürəyindən olmuşdu.

Həyata 1992-ci ildə vəsiqə qazanmış və 30 illik yubileyini beynəlxalq dairələrdə yüksək nüfuz sahibi kimi qeyd edən Azərbaycan Milli Olimpiya Komitəsinin hazırda ümumdünya olimpiyaçılar ailəsinin ən hörmətli üzvlərindən biri olmasında bugünkü qələbələrimiz üçün möhkəm təməl yaratmaqla bu işə böyük töhfələr vermiş Heydər Əliyevin xidmətləri heç vaxt unudulmayacaq. Ümummilli lider idmanımızın dayağı idi. Təmsilçilərimizin beynəlxalq meydanda – Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında, digər mötəbər beynəlxalq yarışlarda qazandıqları nailiyyətlərin arxasında təxminən yarım əsr əvvəl məhz ulu öndərin rəhbərliyi ilə həyata keçirilən güclü idman siyasəti dayanır.

Bununla əlaqədar 48 il əvvəl, 1974-cü ildə keçirilmiş Azərbaycan partiya fəalları yığıncağı yadıma düşür. İdman ictimaiyyətimizin yaşlı nümayəndələrinin daim minnətdarlıqla xatırladıqları həmin yığıncaq xüsusi bir tədbir idi. Buna qədər heç vaxt respublika partiya fəalları yığıncağı bütünlüklə bir məsələyə – bədən tərbiyəsi və idmanın problemlərinə həsr olunmamışdı. İndi isə belə bir zərurət yaranmış, yığıncaqda gündəlikdəki məsələ haqqında ən yüksək səviyyədə açıq və prinsipial söhbət getmişdi.

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev həmin tədbirdə idmanımızın bütün sahələrini əhatə edən geniş nitqində yaranmış vəziyyəti hərtərəfli təhlil etmiş, irəliləyişə mane olan nöqsan və çatışmazlıqları göstərmiş, gümrahlıq və sağlamlıq məşğələlərinin məişətimizə daha möhkəm daxil edilməsi, kütləviliyin artırılması, böyük idmanda isə yüksək nailiyyətlər qazanılması yolları üzərində dayanmışdı.

Azərbaycan rəhbəri buna qədər görülmüş işlərin respublikanın imkanlarına heç də uyğun gəlmədiyini bildirərək qeyd etmişdi ki, məhz bu səbəbdən bədən tərbiyəsi və idmanı daha da inkişaf etdirmək tədbirləri məsələsini partiya fəalları yığıncağının müzakirəsinə vermək zərurəti yaranmışdır. Heydər Əliyev nitqini yekunlaşdırarkən isə demişdi ki, bu, respublika fəallarının ilk mötəbər yığıncağıdır ki, kommunist tərbiyəsi sahəsində işimizin ən mühüm cəhətlərindən birini hərtərəfli müzakirə etdi.

Hadisələrin sonrakı gedişinin göstərdiyi kimi, partiya fəalları yığıncağı Azərbaycan idmanında tarixi hadisəyə çevrilib, gələcək uğurlarımız üçün gözəl imkanlar açdı. İndi müstəqil dövlət olan, gündən-günə çiçəklənən və möhkəmlənən, 2020-ci ilin cəmi 44 günü ərzində erməni işğalçılarını sarsıdıcı zərbə ilə darmadağın edərək dərin nokauta salan Azərbaycanın dünya birliyinin bərabərhüquqlu üzvü kimi beynəlxalq miqyasda ölkəmizin qüdrətini və imkanlarını inamla nümayiş etdirməsi Heydər Əliyevin uzaqgörən müdrik siyasəti nəticəsində mümkün olmuşdur.

Ən başlıcası isə idmanımızın bəxti gətirmişdir, estafet etibarlı əllərdədir. Bugünkü qələbələrimiz və şöhrətimiz üçün hələ yarım əsr əvvəl lazımi şərait yaradan, Azərbaycan idmanına qayğı və diqqəti gündən-günə artırmaqla respublikamızı dünyaya nümunə göstərilən ölkələr sırasına çıxaran "Olimpiya ləyaqəti" mükafatının sahibi ulu öndər Heydər Əliyevin başladığı işi bu gün möhtərəm Prezidentimiz, ölkə Milli Olimpiya Komitəsinin rəhbəri, 2004-cü ildə Beynəlxalq Olimpiya Komitəsinin "Olimpiya ordeni"nə layiq görülmüş cənab İlham Əliyev inamla davam etdirir.

**Oqtay BAYRAMOV,**
**Əməkdar jurnalist**